**Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası tərəfindən elan edilmiş müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər**

***Qeyd: Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası tərəfindən elan edilmiş müsabiqədə iştirak etmək üçün sənədlər bu elan dərc olunan gündən bir ay müddətində qəbul edilir.***
***Müsabiqədə iştirak etmək istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:***

1. Ədliyyə Akademiyasının rektorunun adına ərizə;
2. Kadrlar uçotunun şəxsi vərəqəsi;
3. Tərcümeyi-hal;
4. Ali təhsil haqqında diplomun notariat qaydasında təsdiq olunmuş surəti (xarici dövlətlərin ali təhsil sahəsində ixtisasları Azərbaycan Respublikasında tanınmaqla və ekvivalentliyi müəyyən edilməklə (nostrifikasiya olunmaqla);
5. Elmi ad və dərəcə haqqında sənədlərin surəti;
6. Dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı;
7. Şəxsiyyət vəsiqəsinin notariat qaydasında təsdiq olunmuş surəti;
8. Əmək kitabçasının notariat qaydasında və ya kadrlar xidməti tərəfindən təsdiq olunmuş surəti;
9. Sağlamlıq və ailə tərkibi haqqında arayış;
10. 4×6 sm ölçüdə 4 ədəd, 3×4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil;
11. İş yerindən razılıq məktubu;
12. Hərbi biletin notariat qaydasında təsdiq edilmiş surəti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli qurumundan həqiqi hərbi xidmət keçmə və qeydiyyat haqqında, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ vardırsa və ya azad edilmişdirsə müvafiq təsdiqedici sənəd.